UOT 37.01.

***Ülviyyə Murad qızı Mehdiyeva***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikası Təhsil İnstitutu*

# İBTİDAİ SİNİFLƏRDƏ İNGİLİS DİLİ TƏLİMİNİN PRAKTİK MƏSƏLƏLƏRİ

***Ульвия Мурад гызы Мехтиева***
*докторант по программе доктора философии,*
*Институт Образования Азербайджанской Республики*

# ПРАКТИЧЕСКИЕ ВОПРОСЫ ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА В НАЧАЛЬНЫХ КЛАССАХ

***Ulviyya Murad Mehdiyeva***
*doctorial student in the proqramme of a Ph.D*
*Institute of Education of the Republic of Azerbaijan*

# PRACTICAL ASPECTS OF TEACHING ENGLISH IN PRIMARY CLASSES

**Xülasə:** Məqalədə ibtidai siniflərdə ingilis dili təliminin praktik məsələlərindən bəhs edilir. Müəllif qeyd edir ki, xarici dil üzrə təlim prosesinin səmərəliliyi, müəllim və şagird fəaliyyəti və nəhayət, təlim məqsədlərinə nail olunması təlimin təşkili formalarından, vasitələrindən, tətbiq olunan metod və texnologiyalardan asılıdır.

***Açar sözlər:*** *ibtidai təhsil, kommunikativ məqsəd, təlim metodları, bacarıqlar*

**Резюме:** В статье рассматриваются вопросы организации обучения иностранному языку на начальном уровне. Отмечается, что эффективность процесса обучения иностранному языку, деятельность учителей и учеников и наконец, достижение целей обучения зависят от форм обучения, используемых методов и технологий.

***Ключевые слова:*** *начальное образование, коммуникативная цель, методы обучения, умения*

**Summary:** The article deals with the organization and teaching of foreign language teaching at elementary level. It is noted that the effectiveness of the foreign language teaching process, the activities of teachers and pupils, and achieving the goal of training depend on its forms and methods and technologies used in the learning process.

***Key words:*** *primary education, communicative purpose, teaching methods, skills*

Müasir dövrdə insanların müxtəlif sahələrdə ünsiyyət yaratmaq tələbatı getdikcə artır. Hal-hazırda xarici dildə də danışmaq, yazmaq kimi səmərəli bacarıqlara nail olmadan ünsiyyət qurmaq qeyri-mümkündür.

Şagirdlərdə müasir informasiya texnologiyaları vasitəsi ilə ünsiyyət qurmaq, həyati tələbatlarla bağlı müxtəlif bacarıqları mənimsəmək zərurəti yaranır. Bütün bunlar xarici dilin təlimində standart dərs formalarından qeyri-standart dərs formalarına keçidi labüd edir və bunlardan səmərəli istifadə yollarını axtarmağa zəmin yaradır.

İbtidai pillədə şagirddə dilə qarşı maraq oyadılmalı, motivasiya gücləndirilməli, onlara dilin tədrisi prosesi, xarici dilin özü və onun mədəniyyəti sevdirilməlidir.

Xarici dil üzrə təlim prosesinin səmərəliliyi, müəllim və şagirdlərin fəaliyyəti və nəhayət, təlim məqsədlərinə nail olunması təlimin təşkili formalarından, tətbiq olunan metod və texnologiyalardan, vasitələrindən asılıdır.

Müasir dövrün tələblərinə uyğun olaraq təlim formalarının, metodlarının, üsullarının seçimi zamanı aşağıdakı meyarların nəzərə alınması zəruridir:

- şagirdin özünü sərbəst hiss etməsi üçün əlverişli mühitin yaradılması, onun maraqlarının stimullaşdırılması;
- şagirdlərin şəxsiyyətinə, onların emosiyalarına, hisslərinə hörmətlə yanaşılması və yaradıcı qabiliyyətlərinin inkişaf etdirilməsi;
- şagirdlərin fəallığının təmin edilməsi, onun təlim prosesinin əsas siması hesab edilməsi;
- təlim prosesində müəllimin istiqamətverici kimi çıxış etməsi;
- fiziki, intellektual və emosional imkanları səviyyəsində ibtidai sinif şagirdlərinə ingilis dili üzrə müstəqil işləməyin öyrədilməsi, daha doğrusu, təlim prosesində differensiasiya və fərdiləşdirmənin təmin edilməsi;
- sinifdə müxtəlif iş formalarının tətbiq edilməsi: fərdi, cütlərlə, qruplarla, kollektiv, fəallığı stimullaşdıran müstəqil işlər, yaradıcılığı inkişaf etdirən işlər.

Hər hansı bir iş formasının seçilməsi keçilən mövzudan, dərsin məqsədindən asılıdır. Müəllimin hər bir dərs üçün bir neçə iş forması seçmək imkanı var. Əgər seçilən iş forması fərdi şəkildədirsə, müəllim hər bir şagird üçün ayrı sual və ya tapşırıq hazırlamalı, görüləcək işi cütlər və ya müxtəlif qruplarda təşkil etməyi nəzərdə tutursa, o, aşağıdakıları diqqətdə saxlamalıdır:

- Şagirdlərdə kollektivdə işləmək bacarıqlarını inkişaf etdirməlidir;
- onların bir-biri ilə ünsiyyət yaratması və fikir mübadiləsi aparması üçün real şərait yaratmalıdır;
- şagirdlərə problemləri birlikdə həll etmək yollarını göstərməlidir;
- başqalarının səviyyəsini qiymətləndirmək vərdişlərini aşılamalıdır.
- digərlərinin fikirlərinə hörmətlə yanaşmaq bacarıqlarını formalaşdırmalıdır.

İnteraktiv təlim prosesində oyunların əhəmiyyəti böyükdür. Oyunlar ibtidai təhsil pilləsində xarici dilin tədrisinin məzmununu dəyişir:

- şagirdlərə xarici dili autentik yolla təqdim edir;
- şagirdlərdə tənqidi təfəkkürü inkişaf etdirir;
- motivasiyanı gücləndirir, dildən istifadə etməyə maraq yaradır;
- şagirdlərdə müstəqilliyi və özünəinamı artırır;
- yorucu dərsin maraqlı və əyləncəli dərslə əvəz olunmasını təmin edir;
- mənimsəmə prosesini asanlaşdırır, yaddaşı möhkəmləndirir.

Müasir müəllimin yeni metodlardan istifadə edib ibtidai səviyyəli şagirdlər üçün ən yaxşı öyrənmə mühitini yarada bilmək üçün sinfin idarə olunması bacarıqlarına yiyələnməsi, şagirdlərin fəal olmaları üçün video, audio və sosial mediadan istifadə etməyi öyrənməsi, uşaqların təliminə təkan vermək məqsədilə mahnı və oyunlardan istifadə olunması üsullarını müəyyən etməsi vacib şərtlərdəndir.

İbtidai təhsil pilləsində xarici dili tədris edəcək müəllimin aşağıdakıları bacarması zəruridir:

- xarici dilin interaktiv metodlarla öyrədilməsi;
- şagirdlərin reseptiv, produktiv və digər bacarıqlarının inkişaf etdirilməsi;
- müəyyən qrammatik dil materiallarının uyğun gələn funksional dil materiallarının tərkibində təqdim edilməsi;
- dərsin müasir standartlara uyğun, səmərəli şəkildə təşkil edilməsi;
- dərslərin xarici dildə aparılması (ehtiyac olduqda ana dilindən istifadə edilməsi);
- dərsdə yardımçı və texnoloji vasitələrdən istifadə edilməsi;
- şagirdlərin diqqətlə dinlənilməsi, yalnız ehtiyac olduqda müdaxilə edərək səhvlərin düzəldilməsi və ya əlavələrin edilməsi;
- şagirdlərdə ünsiyyət qurmaq və müşahidə etmək qabiliyyətlərinin formalaşdırılması;
- şagirdlərin dil vahidlərindən sərbəst şəkildə müxtəlif situasiyalarda istifadə etmələrinə nail olunması.
- şagirdlərə seçmək, öyrənmək və istifadə etmək kimi bacarıqların aşılanmasına nail olunması.

Aşağı siniflərdə dildən ünsiyyət vasitəsi kimi istifadə etmənin təməli qoyulur. İbtidai təhsil pilləsində dinləyib-anlama, şifahi nitq, ilkin yazı və düzgün oxu qabiliyyətlərinin yaradılması və inkişaf etdirilməsi tələb olunur.





**Problemin aktuallığı.** Fəal təlim idrak fəaliyyətinin təşkili və idarə olunması üsullarının məcmusudur. Ona xas olan xüsusiyyətlər müəllim tərəfindən problem situasiyanın yaradılması, şagirdlərdə motivasiyanın gücləndirilməsi, zəruri biliklərin müstəqil əldə edilməsidir. Fəal təlim zamanı şagird təlimin fəal iştirakçısına çevrilir. Təlim prosesinin kommunikativyönümlü təşkili önə çəkilir.

**Problemin elmi yeniliyi.** İbtidai siniflərdə ingilis dilinin kommunikativyönümlü təliminin səmərəli həllinə imkan verən əsas amillər müəyyənləşdirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə ingilis dili dərslərinin daha səmərəli təşkilinə köməklik göstərəcəkdir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün xarici dil fənni üzrə təhsil proqramı( kurikulumu). ( I-XI siniflər). Bakı, 2013.

2. Бим И.Л., Садомова Л.В. Некоторые актуальные проблемы организации обучения иностранному языку // Иностраные языки в школе, 1998, № 5

3. Пассов Е.И. Основы коммуникативной методики обучения иноязычному общению. М.: Русский язык, 1989.

**E-mail:** mehdiyevaulviyya@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **D.Ə. İsmayılova,** *ped.ü.fəls.dok., dos.* **G. Camalova**

**Redaksiyaya daxil olub:** 10.12.2018